# Ötən ilin payızı xalqımıza çoxdan gözlədiyimiz Qələbə sevinci gətirdi



*Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

**Xalqımız Qələbəni səhrada susuzluqdan əzab çəkən adamın su axtardığı kimi arzulayırdı. Milyonlarla insan Qələbə sözünə təşnə idi. Tanrı həmin sevinci bizə bəxş etmək üçün əvvəlcə lider nəsib etdi, sonra konkret tarix. Lider isə qələbənin təmin edilməsi üçün əvvəlcə lazımi hazırlıq işlərini gördü, sonra da həlledici addımları atdı. 1993-cü ilin yayından başlanan, 18 il əvvəl mühüm mərhələyə keçən hazırlıq işlərinin möhtəşəm nəticəsini 2020-ci ilin payızında gördük. O payız xalqımıza görmədiyimiz günləri yaşatdı.**

...2021-ci ilin payızında – sentyabrın 27-də televiziya jurnalisti iki qoltuq ağacının köməyi ilə ayaq üstdə durmuş leytenantdan soruşdu: – Qələbə gününü necə xatırlayırsınız?

Zabit cavab verdi: – Göz yaşlarıyla, ömrüm boyu unutmayacağım təəssüflə… Çünki anama söz vermişdim ki, düşmən bütün torpaqlarımızdan qovulunca onların başına od ələyəcəyəm. Noyabrın əvvəlində ayağımı itirib hospitala düşməyib bu arzumu yarımçıq qoydu.

İkinci məqam. Bir əsgər danışır: "Noyabrın 3-də cəbhədən nənəmə zəng elədim. Dedim, onları qırırıq. Mütləq qələbə qazanacağıq. Elə bilirdim nənəm deyəcək ki, özünü qoru. Amma nənəmin səsi heç zaman eşitmədiyim kimi hökmlü idi: İrəli gedin, ürəyimin parası, irəli, irəli…

Biz irəli getdik və indi nənəm elə bilir ki, erməniləri təkcə mən məğlub etmişəm".

Xalqın bütün təmsilçilərinin orduya, əsgərə xitabən səsləndirdiyi: "İrəli, ancaq irəli!" əmrini Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev belə ifadə etmişdir: "Tərtərə, mncə, 16, yaxud 18 min bomba düşüb, o cümlədən dəfn mərasiminə hücum ediblər. Yəni, dinc əhaliyə maksimum ziyan vurmaq istəyiblər. Görünür, bu, onların acizliyinin, zəifliyinin, döyüş meydanında məğlub olmalarının nəticəsi idi. Onlar düşünürdülər ki, bizi bu yolla dayandıracaqlar. Hərçənd… öz yaxınlarını itirmiş və ya uçqunların altından çıxmış, tamamilə qan içində olan adamlar deyirdilər ki, yalnız irəli gedin, təki dayanmayın". Çünki bu xalq Qələbənin həsrətində idi. Erməni alim Arkadi Zurabyanın dediyi kimi, "İlham Əliyev və əsgərləri türklərə qələbə sevincini yaşatdı".

Bu məqamda xatırladım ki, erməni kütləvi informasiya vasitələrində "Azərbaycan Ordusu" ifadəsinə, demək olar ki, rast gəlmirik. Onların hamısı – Paşinyan tərəfdarları da, indiki iqtidara müxalif olanlar da "İlham Əliyev və əsgərləri" ifadəsini işlədirlər. Mən bu faktın dəqiq mənasını bilməsəm də, sosial şəbəkələrdə oxumuşam ki, ermənilər nəinki Azərbaycan Ordusunun özünü, hətta qəzet səhifəsindəki adını da görməkdən qorxur, çəkinirlər.

Çünki ötən ilin sentyabrında– hərbi əməliyyatların birinci gününün sonunda ordumuz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi – Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etmişdi. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik. Ancaq ermənilər elə güman edirdilər ki, bu müharibə hələ daha on il çəkəcək və onlar işğal altında saxladıqları ərazilərimizin talan edilib satılmasını davam etdirəcəklər. Sarsıdıcı fakt qaşısında qalan erməni Azərbaycan Ordusu ifadəsini necə dilə gətirə bilər ki?

Qeyd edək ki, çoxsaylı havadarlarına güvənən Ermənistanın ildırım sürətli əməliyyatlarla çökdürülməsi– bu ifadəyə fikir ver, hörmətli oxucu, biz təkcə erməni ordusunu məğlub etməmişik, həm də Ermənistan dövlətini çökdürmüşük– üçün konkret hazırlıqlar aparıldığı barədə əvvəllər də yazmışıq. Ancaq Prezident İlham Əliyev həmin hazırlıqları daha aydın və açıq detallarla dilə gətirir: " Müharibə şəraitindəki ölkədə həyatın bütün halları üçün döyüş əməliyyatlarının aparılması planı, təbii ki, çoxdan işlənib hazırlanırdı. Əlbəttə, yeni reallıqlar, Azərbaycanın yeni imkanları, o cümlədən texnoloji imkanları nəzərə alınmaqla bu plana vaxtaşırı dəyişikliklər edilirdi və hər dəfə həmin dəyişikliklər mənim tərəfimdən təsdiq olunurdu. Bu, təbiidir. Mən onu da bilirəm ki, Ermənistan tərəfinin müharibə ilə bağlı fəaliyyət planı vardı. Əslində, sentyabrın 27-də onlar həmin planı reallaşdırmağa başladılar. Beləliklə, müharibə dövründə bizim davranışımızın əsası, təbii ki, keçən il döyüş əməliyyatları başlanandan xeyli əvvəl işlənib hazırlanmışdı, lakin hərbi əməliyyatların gedişində biz buna dəyişikliklər edirdik".

Dövlət başçımız xatırladır ki, mən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi ilə hər gün müşavirələr keçirirdim. Biz həmin müşavirələrdə ötən günə yekun vurur, nöqsanları aşkar edir, növbəti gün üçün əməliyyatları planlaşdırır və təsdiq edirdik. Buna görə də, belə deyək, çox fəal gündəlik iş gedirdi və bir sıra hallarda, bizim fəaliyyətimiz, bizim əməliyyatlarımız düşmən üçün çox gözlənilməz olurdu.

Xarici ölkələrdəki obyektiv ekspertlər yazırlar ki, Azərbaycanın qələbəsini təmin edən mühüm cəhətlər təkcə liderin hərbi əməliyyatlara lazımi şəkildə rəhbərlik etməsi, ordunun müasir təchizatı, şəxsi heyətin peşəkarlığı, xalqın orduya və dövlətə inamı deyildi. Burada gözəgörünməyən qüvvənin– Tanrının da dəstəyi var idi. Çünki Azərbaycan ədalətli müharibə aparırdı, öz ərazi bütövlüyünün bərpasına çalışırdı və 44 gündə bir dəfə də olsun, provakasiyalara uymadı, günahsız, dinc insanlara hücum etmədi, müharibənin humanist cəhətlərini unutmadı və ona görə də Qələbə mütləq Azərbaycanın olmalıydı və oldu.

Hətta ermənilər dinc şəhərlərimizi bombalayanda, uşaqlarımızı və qadınlarımızı öldürəndə də biz onlara eyni şəkildə cavab vermədik, biz onların dinc şəhərlərini bombalamadıq. Bu məqamı dövlət başçımız daha aydın dilə gətirərək deyir: "Hərbi əməliyyatın elə ilk günündə mən hərbi qulluqçulara çox sərt göstərişlər vermişdim ki, hərbi cinayətlər törətməyi özünə rəva görənlər ciddi cəzalandırılacaqlar".

Nəticədə, hərbi əməliyyatların elə ilk günlərindən biz uzun müddət gözlədiyimiz qələbə sevincini daddıq. Sonrakı günlər daha uğurlu oldu və dünya səviyyəli hərbi ekspertlərin çoxu həmin 44 günü XXI əsrin müharibəsi adlandırırlar. Çünki həmin günlərdə böyük sayda uçuş aparatları kəşfiyyat, aşkar olunmuş hədəflərin məhv edilməsi funksiyalarını yerinə yetirirdi.





Xülasə, mükəmməl və müasir idarəetmə, müxtəlif texniki vasitələr, şəxsi heyətin peşəkarlığı, xalqın bütün fərdlərinin vətənpərvərliyi və eləcə də, qardaş Türkiyənin və dost Pakistanın dəstəyi ilə son əsrlərin ən böyük qələbəsinə nail olduq. Bu Qələbə bizə Ermənistanın Ağdam, Kəlbəcər və Laçından hərbi müqavimət göstərmədən rədd olub getməsini göstərdi. Bakıda Zəfər paradının təşkil edilməsinin, Füzulidən Şuşaya Zəfər yolunun çəkilməsinin, Şuşanın mədəniyyət paytaxtı elan edilməsinin, orada "Xarıbülbül" festivalının və Vaqif Poeziya Günlərinin keçirilməsinin, Füzulidə müasir beynəlxalq hava limanının açılmasının şahidi olduq. Zəngilanda Azərbaycan və Türkiyə dövlət başçılarının görüşməsi və birgə bəyanatla çıxış etməsi üçün yaradılan imkan, eləcə də Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər də məhz şanlı Qələbəmizin parlaq nəticələridir.

Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*